

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 07 (647) ■ 20 fevral 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Küveyt Dövləti Azərbaycanın haqq işini daim dəstəkləyir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveyt Dövləti Baş nazirinin müavini, xarici işlər naziri Şeyx Sabah Əl-Xalid Əl-Hamad Əl-Sabahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir***



Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etmişdir. Prezident İlham Əliyev Küveyt Dövlətinin Baş nazirinin müavini, xarici işlər nazirinin Azərbaycana səfərinin ölkələrimiz arasında münasibətlərin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət və mədəni sahələrdə daha da gücləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə Küveyt arasında mövcud tərəfdaşlıq əlaqələrinin gələcək illərdə də uğurla inkişaf edəcəyini əminliklə qeyd etmişdir.

Şeyx Sabah Əl-Xalid Əl-Hamad Əl-Sabah Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarını və məktubunu dövlətimizin başçısına çatdırmışdır. Qonaq ölkələrimiz arasında əməkdaşlığın genişlənməsində Azərbaycan-Küveyt hökumətlərarası birgə komissiyanın fəaliyyətinin əhəmiyyətini qeyd etmişdir. O, Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını demişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən qonaq münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinin vacibliyini qeyd etmişdir. Şeyx Sabah Əl-Xalid Əl-Hamad Əl-Sabah ölkələrimizin özəl strukturları arasında da əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır.

Prezident İlham Əliyev Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın salamlarına və məktubuna görə minnətdarlığını bildirmiş, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə çatdırmağı xahiş etmişdir. Küveyt Dövlətinin Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahla görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğulamışdır.

Görüşdə parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi bildirilmiş, birgə infrastruktur layihələrinin əhəmiyyəti qeyd olunmuş, ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək vermələrinin önəmi vurğulanmış və bu əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

# Çexiya parlamenti Ermənistanı işğalçı dövlət kimi tanıdı

***Çexiya Respublikası Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət olmuşdur***

«AzərTAc»ın yaydığı xəbərə görə, fevralın 7-də Çexiyanın ali qanunvericilik orqanının Deputatlar Palatasının Beynəlxalq Əlaqələr Komitəsi 21 il əvvəl «erməni hərbi bölmələri tərəfindən Azərbaycanın işğal olunmuş Xocalı şəhərində 613 mülki dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi ilə törədilmiş qırğına görə» Ermənistanı pisləyən qətnaməni yekdilliklə qəbul etmişdir. Qəbul edilmiş sənəddə qeyd olunur ki, «bu qırğın haqqında dünyanın bir çox kütləvi informasiya vasitələri məlumat yaymış və bu hadisə «Human Rights Watch/Helsinski» təşkilatı tərəfindən erməni hərbi qoşunlarının münaqişə zonalarında dinc əhaliyə münasibətdə beynəlxalq hüququn adi normalarının pozulması kimi bəyan edilmişdir». Sənəddə xüsusi vurğulanır ki, «insanlığa qarşı törədilən bu cinayəti bir çox dünya hökumətləri də pisləmişlər». Qəbul edilmiş sənəddə o da qeyd edilir ki, «Azərbaycan torpaqlarının qonşu Ermənistan tərəfindən işğalına son qoyulmasına çağıran BMT-nin Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələri indiyədək yerinə yetirilməmişdir. BMT Baş Məclisi, Avropa Parlamenti, Avropa Şurası və ATƏT-in Parlament Assambleyası öz qətnamələrində Azərbaycan Respublikasının Dağlıq Qarabağ da daxil olmaqla suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirlər».

Nəhayət, yekdilliklə qəbul edilmiş qətnamənin sonuncu paraqrafında deyilir: «Çexiya Respublikası Parlamentinin Deputatlar Palatasının Xarici Əlaqələr Komitəsi müdafiəsiz dinc əhaliyə qarşı törədilmiş etnik təmizləməni, qırğın və soyqırımı hallarını törədilmə vaxtından və yerindən asılı olmayaraq pisləyir. Bütün bu cür aktları pisləyən qəbul edilmiş qətnamələrin ardıcıllıqla yerinə yetirilməsinə çağırır. Bu kontekstdə Xocalıda törədilmiş qırğını insanlığa qarşı cinayət hesab edərək, onu pisləyir və rədd edirik. Bununla həmin faciənin 21-ci ildönümünü anır və Azərbaycan xalqına başsağlığı veririk».

Beləliklə, Çexiya parlamenti Avropa İttifaqında Ermənistanı Xocalıda bəşəriyyət əleyhinə törətdiyi cinayətlərə görə pisləyən ilk qanunverici orqan olmuşdur. Çexiya bu qətnamə ilə Dağlıq Qarabağ regionunu Azərbaycan Respublikasının tərkib hissəsi kimi, Ermənistanı isə bu ərazini işğal etmiş, Xocalıda ən ağır cinayətin törədilməsində təqsirkar olan dövlət kimi tanıdığını bir daha rəsmən təsdiq etmişdir.

# Azərbaycan Ağsaqqallar Şurasının VI qurultayına

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Ağsaqqallar Şurasının VI qurultayının keçirilməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ali toplantınızın işinə uğurlar arzulayıram.

Azərbaycanda tarixin bütün mərhələlərində ağsaqqallar yüksək hörmət və nüfuz sahibi olmuş, cəmiyyətdə özünəməxsus yer tutmuşlar. Respublikamız müstəqillik qazandıqdan sonra ölkə həyatının bütün sahələrində onların rolu daha da artmışdır. Bu gün inamla qeyd etmək olar ki, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, davamlı ictimai-siyasi sabitliyin bərqərar olmasında, elm, təhsil və mədəniyyətimizin inkişafında, gənc nəslin yetişməsi və formalaşmasında ağsaqqalların müstəsna xidmətləri vardır.

Son illər Azərbaycan özünün mühüm inkişaf dövrünü yaşayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, həyata keçirilən ardıcıl islahatlar ölkə iqtisadiyyatının dinamik inkişafını, nəhəng infrastruktur layihələrinin reallaşdırılmasını, Azərbaycanın sürətlə müasirləşməsini və əhalinin rifah halının yüksəldilməsini təmin etmişdir.

Fərəhli haldır ki, respublikamızın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında ağsaqqallar yaxından iştirak edir, dəyərli təşəbbüslər irəli sürürlər. Biz paytaxt və regionlarda genişmiqyaslı quruculuq işlərini həyata keçirərkən onların rəy və təkliflərini nəzərə alır, müdrik tövsiyələrinə istinad edirik. Yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində də ağsaqqalların böyük rolu vardır.

Hesab edirəm ki, VI qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin genişlənməsinə, qurumun Azərbaycan cəmiyyətindəki nüfuzunun daha da artmasına, dövlət orqanları ilə əməkdaşlığının dərinləşməsinə yeni təkan verəcəkdir.

Sizi bir daha qurultayınızın işə başlaması münasibətilə təbrik edir, hər birinizə uzun ömür, cansağlığı və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 fevral 2013-cü il.*

rəsmi xronika

## Prezident İlham Əliyev İtaliya xarici işlər nazirinin müavinini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də İtaliya Xarici İşlər nazirinin müavini xanım Marta Dassunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilmiş, əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanmış, əlaqələrimizin daha da möhkəmləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## «SOS» Kinderdorf İnternational»ın prezidenti ölkə başçısının qəbulunda olmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də «SOS» Kinderdorf İnternational» təşkilatının prezidenti Siddharta Kaulu qəbul etmişdir.

Görüşdə ölkəmiz ilə «SOS» Kinderdorf İnternational» təşkilatı arasında uzunmüddətli uğurlu əməkdaşlıq məmnunluqla qeyd olunmuş, təşkilatın Azərbaycanda həyata keçirdiyi layihələrin önəmi vurğulanmış, əməkdaşlığımızın gələcək illərdə daha da genişlənəcəyinə əminlik ifadə edilmişdir.

# BIRLİKDƏ BUNU DA ETDİK!

***Ağ Evin rəsmi saytında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yerləşdirilmiş petisiya artıq 100 min imza toplamışdır***




Məlum olduğu kimi, yanvarın 23-də Ağ Evin rəsmi saytının «Biz xalqıq» (We the People) bölməsində Prezident Barak Obama administrasiyasının diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal olunması faktına cəlb etməyə yönəlmiş petisiya yerləşdirilmişdir.

Bu petisiya üzrə səsvermə fevralın 22-də bitəcəkdir. Lakin tələb olunan 100 min imza artıq fevralın 19-da yığılmışdır. Buna baxmayaraq, hazırda səslərin verilməsi prosesi davam edir.

2 Vergilər Nazirliyində görüş keçirilmişdir

3 Ölkəmizin uzunmüddətli inkişaf ssenarilərini müəyyən edəcək model

4 Qeyri-neft sektorunun yeni inkişaf proqramı hazırlanır

5 Yoxsullulqa mübarizə tədbirləri gücləndirilir

# Vergilər Nazirliyində görüş keçirilmişdir

*Fevralın 14-də vergilər naziri Fazil Məmmədovun Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobia və Avropa İttifaqına üzv dövlətlərin ölkəmizdə fəaliyyət göstərən səfirləri ilə görüşü keçirilmişdir.*





Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq məsələləri və onun perspektivləri, milli vergi sisteminin müasir vəziyyəti və inkişaf istiqamətləri müzakirə edilmişdir. Vergilər naziri Fazil Məmmədov Azərbaycanın Avropa İttifaqı ilə sıx tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin olduğunu, ölkəmizin Avropanın enerji təhlükəsizliyində yaxından iştirak etdiyini bildirmişdir. Avropa qonşuluq siyasəti çərçivəsində Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planının həyata keçirilməsinin əməkdaşlıq sahəsində yeni imkanlar yaratdığını bildirən nazir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə milli qanunvericilik bazasının daim təkmilləşdirildiyini, idarəetmə prinsipləri və praktikasının Avropa İttifaqına üzv ölkələrin ən qabaqcıl təcrübələri nəzərə alınmaqla inkişaf etdirildiyini vurğulamışdır.

Vergilər naziri Avropa İttifaqının dəstəyi ilə reallaşdırılan texniki yardım proqramı çərçivəsində 2011-ci ildən Vergilər Nazirliyi və Niderland Krallığının Vergi və Gömrük Administrasiyası tərəfindən «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı Tvinninq layihəsinin həyata keçirildiyi barədə məlumat vermiş, bu layihə çərçivəsində bir sıra yeni qanunvericilik sənədlərinin hazırlandığını, metodoloji və insan resursları bazası yaradıldığını, mütəxəssislərin treninqlərə cəlb edildiyini, ölkəmizdə vergi auditi sahəsindəki mövcud inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işləri görüş iştirakçılarının diqqətinə çatdırmışdır. Vergi sistemində aparılan islahatlara toxunan nazir vergi inzibatçılığının müasir informasiya texnologiyalarının nailiyyətlərinə əsaslanmaqla daim təkmilləşdirildiyini, vergi ödəyicilərinə göstərilən xidmətlərin ən müasir texnoloji səviyyədə həyata keçirildiyini, elektron vergi hesab-fakturaları, elektron bəyannamələr, onlayn kargüzarlıq sistemlərinin uğurla tətbiq edildiyini, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qeydiyyatının elektron formata keçirildiyini qeyd etmişdir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası çərçivəsində milli vergi sisteminin qarşısında konkret hədəflərin müəyyən olunduğunu qeyd edən vergilər naziri bu hədəflərə çatmaq üçün milli vergi sisteminin iqtisadiyyatın artan həcminə uyğun olaraq inkişaf etdiriləcəyini bildirmişdir. Fazil Məmmədov Avropa İttifaqı ilə birlikdə Vergilər Nazirliyində insan resurslarının davamlı inkişafına Avropa İttifaqının «Fiskal Bluprint» direktivinin prinsipləri əsasında dəstək verilməsini nəzərdə tutan yeni bir Tvinniq layihəsinin də hazırlanmasına start verildiyini qonaqların diqqətinə çatdırmışdır.

Sonra Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəisi Mətin Kərimli və Hüquq idarəsinin rəisi Samirə Musayeva təqdimatla çıxış etmişlər.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobia Azərbaycanla Avropa İttifaqı arasında səmərəli və sıx əməkdaşlığın olmasından məmnunluğunu ifadə edərək bildirmişdir ki, burada deyilənlərin hamısı Avropa İttifaqının planlarına uyğundur. O, bir həftə əvvəl keçirilmiş II Vergi Forumunun böyük təəssürat yaratdığını, Azərbaycanın vergi xidmətinin islahatlara açıq olduğunu, həyata keçirilən şəffaflıq və korrupsiyaya qarşı mübarizə tədbirlərinin də razılıqla qarşılandığını bildirmişdir.

Cənab R.Kobia vergi xidmətində informasiya texnologiyalarının geniş tətbiqinin müsbət bir təcrübə olduğunu, vergi xidməti rəhbərliyinin bu istiqamətdə çalışmalarına dəstək verdiklərini və gələcəkdə də dəstək verəcəklərini nəzərə çatdıraraq, Avropa ölkələrinin səfirləri ilə Azərbaycan hökumətinin üzvləri arasında bu qəbildən olan dialoqların təşkilini səmərəli hesab etdiklərini söyləmişdir. R.Kobia Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının, əsasən, iqtisadiyyatın diversifikasiyası, iqtisadiyyatın liberallaşdırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində inkişafına üstünlük verdiyini vurğulayaraq, xüsusilə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahələrində ölkə başçısının siyasi iradəsini, bu xətti uğurla həyata keçirən dövlət orqanları arasında Vergilər Nazirliyinin Beynəlxalq Antikorrupsiya Akademiyası ilə keçən il imzaladığı Memorandumu yüksək dəyərləndirdiklərini bildirmişdir.

Görüşdə iştirak edən Niderland Krallığının ölkəmizdəki səfiri cənab Aryen Uyterlinde, Avstriya Respublikasının ölkəmizdəki səfiri xanım Silviya Meyer-Kaybiç, Fransa Respublikasının ölkəmizdəki səfirliyinin iqtisadiyyat və ticarət məsələləri üzrə müşaviri cənab Daniel Patat mövcud əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı mülahizələrini söyləmişlər. Görüşdə qaldırılan məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Prezident Administrasiyası rəhbərinin müavini, Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov iştirak etmişdir.

# Azərbaycan IOTA-nın daha bir mühüm tədbirinə ev sahibliyi edir



Fevralın 19-da Bakıda Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) baş əlaqələndirici şəxslərinin 19-cu Forumu öz işinə başlamışdır. Forumda 33 üzv ölkənin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) və IOTA-nın nümayəndələri iştirak edirlər.

Tədbiri giriş sözü ilə açan vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov Forum iştirakçılarını nazirlik adından salamlayaraq qeyd etmişdir ki, IOTA vergi sahəsində təcrübə mübadiləsinin aparılması və uğurlu təcrübələr barədə ətraflı məlumatların əldə edilməsi baxımından üzv dövlətlər üçün əlverişli platforma rolunu oynayır. Azərbaycan Respublikasının Vergilər Nazirliyinin 2002-ci ildən etibarən IOTA-nın tamhüquqlu üzvü olduğunu Forum iştirakçılarının nəzərinə çatdıran Sahib Ələkbərov bildirmişdir ki, respublikamızda IOTA-ya üzv ölkələrin vergi administrasiyaları ilə əməkdaşlığın inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirilir.

Nazir müavini Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, son 10 ildə ölkəmizdə ümumi daxili məhsulun 3 dəfə artdığını, qarşıdakı 10 ildə daha 2 dəfə artacağının gözlənildiyini qeyd etmiş, belə sürətli iqtisadi inkişafın tələblərinə uyğun vergi inzibatçılığının təmin etmək üçün beynəlxalq təcrübənin öyrənilməsinin və tətbiqinin faydalı olduğunu vurğulamışdır: «Təbii ki, bu sürətli iqtisadi inkişafın tələblərinə adekvat olan vergi inzibatçılığını təmin etmək üçün beynəlxalq təcrübənin, o cümlədən vergi sahəsində ən uğurlu təcrübələrin və innovasiyaların öyrənilməsi və tətbiqi bizim üçün mühüm əhəmiyyət kəsb edir. Şübhə yoxdur ki, IOTA-nın baş əlaqələndirici şəxslərinin Bakı şəhərində təşkil edilən Forumu bu istiqamətdə atılan növbəti əməli addım olacaqdır».

IOTA-nın prezidenti Samuel Tanner çıxışında Vergilər Nazirliyinin təşkilatçılığını yüksək dəyərləndirərək qonaqpərvərliyə görə təşəkkürünü bildirmişdir. Qeyd olunmuşdur ki, artıq ənənə halını almış bu forumlar IOTA-nın gələcək fəaliyyət prioritetlərinin müəyyənləşdirilməsi baxımından son dərəcə əhəmiyyətlidir. O, ümidvar olduğunu bildirmişdir ki, Bakı Forumu IOTA-ya üzv dövlətlərin təcrübə mübadiləsi və əməkdaşlığı baxımından yeni imkanlar yaradacaqdır.

Sonra IOTA-nın plenar sessiyaları işə başlamışdır. Üç gün davam edəcək Forumun gündəliyinə təşkilatın fəaliyyəti ilə bağlı bir sıra məsələlərin, o cümlədən qurumun 2012-2017-ci illər üçün müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsi mexanizmləri, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və təkmilləşdirilməsi, vergi inzibatçılığı xərclərinin azaldılması, üzv dövlətlərdə mütərəqqi informasiya texnologiyalarından geniş istifadə edilməsi, IOTA-nın nəşrlərinin səmərəliliyinin artırılması və s. məsələlərin müzakirəsi daxildir.

## Yanvar ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 745 milyon 597,8 min manat vəsait daxil olmuşdur

Bu məbləğin 54,3%-i mənfəət vergisinin, 18,6%-i əlavə dəyər vergisinin, 8,3%-i fiziki şəxslərin gəlir vergisinin, 5,8%-i aksizlərin, 13%-i isə digər vergilərin payına düşür. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 304 milyon 253,3 min manat vəsait daxil olmuşdur. Yanvar ayında respublika üzrə 8 min 530 vergi ödəyicisi qeydiyyata alınmışdır. 2011-ci ilin iyul ayının 1-dən bu ilin fevral ayının 1-dək 60 min 923 fiziki şəxs elektron qaydada qeydiyyatdan keçmişdir. 1 fevral 2013-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 489 min 180 olmuşdur. 2013-cü ilin yanvar ayı ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,2% təşkil etmişdir.

# Samuel Tanner: *«Azərbaycan iqtisadiyyatı heyrətverici səviyyədə inkişaf edir»*

*Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) baş əlaqələndirici şəxslərinin 19-cu Forumu çərçivəsində mətbuat nümayəndələri üçün brifinq keçirilmişdir.*

Jurnalistlərin suallarını cavablandıran IOTA prezidenti Samuel Tanner təşkilatın fəaliyyətinin əsas məqsəd və istiqamətləri barədə məlumat vermişdir. Bildirilmişdir ki, IOTA 46 üzv dövlətin vergi administrasiyaları arasında əməkdaşlığa kömək göstərməyə çalışır. IOTA üzv dövlətlərin fərdi tələbatına uyğun olaraq vergi inzibatçılığının praktiki məsələlərinin müzakirəsi məqsədilə seminarlar, tədbirlər təşkil edir. Qeyd olunmuşdur ki, il ərzində Avropanın müxtəlif ölkələrində 25-ə yaxın müxtəlif simpozium, seminar və konfranslar keçirilir: «Ötənilki tədbirimiz də Azərbaycanda keçirilmişdi. Uzun müddətdir ki, Azərbaycan IOTA-nın işində fəal iştirak edir və təşkilatda özünəməxsus yer tutub. Bu tədbirlərdə Azərbaycan iqtisadiyyatı və vergi sistemi haqqında məlumatlarımız daha da zənginləşir. Azərbaycanın iqtisadiyyatı heyrətverici səviyyədə inkişaf edir. Burada bir çox xarici şirkətlər çalışırlar. Hesab edirəm ki, bugünkü tədbir və burada müzakirə olunan məsələlər dövlətlər arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, vergi sahəsində təcrübə mübadiləsinin daha da dərinləşməsinə xidmət edəcək».

Vergilər nazirinin müavini Sahib Ələkbərov bildirmişdir ki, ölkə başçısının dövlət qurumları qarşısında qoyduğu başlıca vəzifələrdən biri də beynəlxalq təcrübənin öyrənilməsi və praktikada uğurla tətbiqidir. Azərbaycanın IOTA-ya tamhüquqlu üzvü olduğu dövrdən qurumun bir sıra beynəlxalq tədbirlərinə ev sahibliyi etdiyini xatırladan nazir müavini ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bildirmişdir: «Beynəlxalq əlaqələrin genişlənməsi Azərbaycanda iqtisadiyyatın sürətli inkişaf tempinə uyğun vergi inzibatçılığının formalaşdırılması baxımından faydalıdır. Azərbaycan gələcəkdə də bu istiqamətdə səylərini davam etdirmək, mütərəqqi təcrübələri öyrənmək və tətbiq etmək niyyətindədir. Bugünkü tədbirdə cənab Tannerin iştirakı IOTA tərəfindən Azərbaycana və burada keçirilən tədbirə xüsusi önəm verildiyini bir daha sübut edir».

Brifinqdə jurnalistləri maraqlandıran digər suallar da cavablandırılmışdır.

# Nağdsız bank əməliyyatları ilə bağlı yeni xidmətlər

2012-ci ilin sonunadək POS-terminalların sayını 46280-ə, plastik kartların sayını isə 2.214.117-yə çatdıran Azərbaycan Beynəlxalq Bankı (ABB) Avropada tətbiq olunan ən son xidmət çeşidlərinin ölkəmizdə istifadəsi üçün bir sıra yeniliklər planlaşdırıb. Bankın başa çatdırdığı və tətbiqinə hazırlaşdığı layihələrdən biri «AzeriCard» prosessinq mərkəzi ilə birlikdə virtual kartların buraxılışıdır. Virtual kartlar mal və ya xidmətlərin internet vasitəsi ilə ödənilməsi üçün istifadə olunur. Bu xidmət çərçivəsində kartda tranzaksiyaların təhlükəsizliyi üçün birdəfəlik parollar sistemindən istifadə edilir, kartın detalları ilə bağlı informasiyalar müştərinin SMS nömrəsinə göndərilir. Parollar tranzaksiyadan əvvəl göndərilir və parolla təsdiq edilməyən tranzaksiyalar həyata keçirilmir.

ABB-nin Pərakəndə biznes departamentinin direktor müavini Eltəkin Rəhimovun sözlərinə görə, virtual kartı «Cash to Card», «Kard Transfer», «VISA Personal Payments» və «MasterCard Money Send» xidmətləri vasitəsi ilə doldurmaq mümkün olacaq. Hazırda bu xidmətin tətbiqi üçün bütün texniki vasitələr və infrastruktur yaradılıb, ölkənin mobil operatorları ilə sistemin işinə start vermək üçün son danışıqlar aparılır.

Beynəlxalq Bank pul vəsaitlərinin bankdan mobil telefonla çıxarılması ilə bağlı layihə üzərində də işləri başa çatdırıb. «AzeriCard» prosessinq mərkəzi ilə birgə layihə çərçivəsində kart olmadan mobil telefon vasitəsi ilə bankomatdan nağd vəsait əldə etmək mümkün olacaq. «Mobile Wallet» layihəsi çərçivəsində tətbiq olunan «MobilBank» xidmətinin istifadəçiləri üçün yaradılan bu yeniliyin əsas cəhətlərindən biri kart hesablarından kartı olmayan şəxslərə istənilən məbləğdə və valyutada pulun göndərilməsidir. Xidmətdən istifadə etmək üçün kart sahibi «MobilBank» sisteminə daxil olaraq əsas menyuda «Cash by Code» seçir, məbləği və valyutanın adını daxil edir. Kart sahibinin telefonuna xüsusi kod göndərilir. Kart sahibi pul vəsaitini göndərmək istədiyi şəxsə SMS-lə həmin kodu çatdırır. Bundan əlavə, kart sahibinin özü də kartı yanında olmadıqda həmin kod vasitəsi ilə bankomatdan nağd pul götürə bilir. Bu xidmət çərçivəsində, həmçinin, mümkün olan bütün kommunal ödənişlərin, ticarət və xidmət məntəqələrində kartsız əməliyyatların mobil telefon vasitəsilə aparılması mümkündür.

E.Rəhimovun qeyd etdiyinə görə, Beynəlxalq Bankın digər bir layihəsi kartdan ölkədən kənarda olan müştərinin kartına pulun köçürülməsidir. VISA şirkəti ilə birgə həyata keçiriləcək layihəyə əsasən, bankın müştərisi ABB-nin heç bir filialına müraciət etmədən bankomat vasitəsilə MDB ölkələrindəki plastik kart sahiblərinə pul köçürə biləcək. Bununla yanaşı, Azərbaycanın ərazisində yaşayan şəxslərin kartına da pul köçürmək mümkün olacaq. ABB-nin təklif etdiyi «Avtomatik ödəmə» xidmətinin köməyi ilə fiziki şəxslərin hesablarından bir sıra daimi ödənişlərin avtomatlaşdırılmış qaydada aparılması mümkündür.

**Elbrus CƏFƏRLİ**

# Ölkəmizin uzunmüddətli inkişaf ssenarilərini müəyyən edəcək model



*Azərbaycan hökumətinin hazırladığı yeni konseptual sənədin – «Ümumi tarazlıq modeli»nin hazırlanmasında iştirak etmiş İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev qəzetimiz üçün müsahibə vermişdir.*

***-Vilayət müəllim, «Ümumi tarazlıq modeli» nədir və onun yaradılması hansı zərurətdən irəli gəlib?***

- «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında respublikamızın qarşıdakı illər üzrə inkişaf ssenarilərinin konturları müəyyən edilib.

Ölkə iqtisadiyyatının daha yüksək səviyyələrə qaldırılması hədəfləri iqtisadi inteqrasiyanın genişləndirilməsi fonunda baş verməlidir ki, bu zaman xarici iqtisadi mühit getdikcə mürəkkəbləşir, daxili iqtisadi mühitdə inkişafa istiqamətlənmiş xeyli çətin məsələlərin həll edilməsi qarşıya çıxır. Belə bir dinamik şəraitdə hökumət və onun əsas iqtisadi qurumları tərəfindən iqtisadiyyatın monitorinqini aparmaq, alternativ tədbirlərin və ssenarilərin təsirlərini qiymətləndirmək, planlar hazırlamaq, orta və uzunmüddətli proqnozlar işləmək üçün güclü analitik imkanlar tələb olunur.

Bunlar nəzərə alınmaqla, iqtisadi siyasətin elmi əsaslarının artırılması məqsədi ilə sosial-iqtisadi göstəricilərin təhlil və proqnozlaşdırılması üçün müvafiq dövlət qurumlarına ümumi informasiya və metodoloji mənbələrdən müştərək istifadə etmək imkanı verən, müxtəlif istifadəçi səviyyəsinə malik olan, ölkədaxili geniş kompüter şəbəkəsinə əsaslanan ümumi iqtisadi tarazlıq modelinin bir modelləşdirmə platforması kimi yaradılması zərurəti meydana çıxıb.

İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu və dünyada modelləşdirmə sahəsində tanınmış «EcoMod Network» təşkilatının birgə əməkdaşlığı nəticəsində Azərbaycan Respublikasının «Ümumi iqtisadi tarazlıq modeli» (AZMOD) bu zərurətdən irəli gələrək hazırlanıb.

***- Azərbaycanın «Ümumi iqtisadi tarazlıq modeli»nin digər ölkələrin modellərindən fərqi nədir?***

- Qloballaşma və qlobal maliyyə və iqtisadi böhran fonunda siyasət qurucuları və biznes ictimaiyyəti öz baxışlarını və strategiyalarını müəyyənləşdirmək, korreksiya etmək və həyata keçirmək üçün təkcə mikro və makro səviyyədə deyil, həmçinin sahəvi, regional və beynəlxalq səviyyələrdə də iqtisadi hadisələrin inkişafını yaxından izləməyə ehtiyac duyurlar. AZMOD məhz qərar qəbul edənlərə ciddi təhlil imkanı yaratmaq üçün qeyd olunan istiqamətlərin hamısında istifadə oluna biləcək güclü bir alətdir.

Azərbaycan modelinin əsas fərqləndirici xüsusiyyəti isə bu modellərin əsas baza məlumatlarının bütün ələavələri ilə birlikdə ora daxil olan Sosial Hesablar Matrisidir (SHM). SHM əmtəə və xidmətlərin sənaye və digər sahələr, ev təsərrüfatları, dövlət, idxal və ixrac arasında necə bölüşdürülməsinin, iqtisadi agentlərin gəlirlərinin və xərclərinin necə yaranması və istifadəsinin, faktor gəlirlərinin yaranması və xərclənməsinin, kapital qoyuluşlarının mənbəyinin və istifadəsinin, sərəncamda qalan gəlirlərin yaranması və istifadəsinin, dünya ilə əlaqələrin də nəzərə alınması ilə iqtisadiyyatın rəqəmlərlə vahid bir cədvəldə ifadəsidir.

AZMOD əksər qabaqcıl ölkələrdə hazırda istifadə olunan müasir modelləşdirmə üsulları və proqram təminatına əsaslanır. O, iqtisadi sektorlar və iqtisadi agentlər - hökumət, maliyyə və qeyri-maliyyə müəssisələri, ev təsərrüfatları və dünyada baş verən bütün dinamik və kompleks qarşılıqlı əlaqələri nəzərə alır. AZMOD nəzəri olaraq hazırda dünyanın ən yüksək elmi biliklərindən istifadə etməklə hazırlanmışdır. Modelin strukturu və məlumat bazası Azərbaycan iqtisadiyyatındakı mövcud vəziyyəti əks etdirir. O, həmçinin, neft sektorunun iqtisadiyyatda oynadığı mühüm rolu da tam nəzərə alır.

***- AZMOD Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramları ilə necə uzlaşır?***

- Ölkəmizin iqtisadi siyasəti ilə bağlı 100-dən çox dövlət proqramı və konsepsiyaları mövcuddur. Ölkəmizin hazırkı inkişaf platformasının əsas prioritetləri neft gəlirlərindən səmərəli istifadə edərək qeyri-neft sektorunun inkişaf etdirməklə diversifikasiya olunmuş, dayanıqlı-tarazlı sosial-iqtisadi inkişafa nail olmaqdır. AZMOD-un köməyi ilə məhz bu vəsaitlərin iqtisadiyyata təsirinin nəticələri ölçülə biləcək. Məsələn, müvafiq dövlət proqramının icrası məqsədilə yoxsulluğun azaldılması üçün aztəminatlı ailələrə əlavə yardımların verilməsi ilə bərabər, bir sıra digər dövlət tədbirləri də həyata keçirilir. Nəticədə iqtisadiyyatda son istehlak xərcləri artır. AZMOD vasitəsilə bu xərclərin artımının iqtisadiyyatın sahələri səpgisində ümumi istehsala necə təsir etməsini asanlıqla qiymətləndirmək və müvafiq proqnozları vermək mümkündür.

Eyni vəziyyəti Azərbaycan regionlarının inkişafı üzrə qəbul edilmiş proqramların icrasının nəticələrinin qiymətləndirilməsində də aid etmək mümkündür. Burada bir məqamı vurğulamaq istəyirəm ki, AZMOD-un indiki versiyası regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində həyata keçirilən tədbirlərin regionlar səpgisində bilavasitə nəticələrini əldə etməyə imkan verməsə də, regionlar üzrə qoyulan investisiyaların iqtisadiyyatın sahələrinin inkişafına təsirini hesablamağa imkan verir.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının həyata keçirilməsində də AZMOD-un tətbiqinə böyük ehtiyac var. Konsepsiyaya görə, iqtisadiyyatda əmək məhsuldarlığının yüksəldilməsinin əsas şərtləri olan bilik və innovasiya növbəti onillikdə inkişafımızın əsas prioritet istiqamətləri hesab olunur. Hesab edirəm ki, konsepsiya yığım və istehlakın səmərəli nisbəti şərtilə həyata keçirilməlidir. Bu baxımdan, AZMOD vasitəsilə yığım və istehlakın səmərəli nisbətini bütün sahələr üzrə qiymətləndirmək və proqnozlaşdırmaq mümkündür. Konsepsiya çərçivəsində hazırlanacaq proqram və konseptual sənədlərin hazırlanması zamanı müxtəlif orientirləri və nisbətləri müəyyən etmək və sahəvi təsirləri qiymətləndirmək baxımından AZMOD böyük imkanlar yaradır.

***- Azərbaycanın ortamüddətli dövrdə vergi siyasətinin həyata keçirilməsi baxımından AZMOD hansı rol oynaya bilər?***

- Sənəd büdcə-vergi siyasəti üçün ən münasib və geniş imkanlara malik iqtisadi alətlərdən hesab olunur. Dünyanın bütün aparıcı ölkələrinin vergi və maliyyə nazirliklərində, habelə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi beynəlxalq təşkilatlarda bu cür modellərdən istifadə edilir. Bu modellər iqtisadiyyatın inkişaf xüsusiyyətlərini, iqtisadi agentlərin özlərini necə apardıqlarını və hökumət vergi və subsidiyalara dəyişikliklər etdikdə onların öz davranışlarını necə dəyişdirdiklərini əks etdirir. AZMOD kimi modellər hökumətin vergi və subsidiyalardakı dəyişikliklərə iqtisadiyyatın necə reaksiya verəcəyinin düzgün qiymətləndirilməsində əvəzsiz rol oynayacaq. Sənəd hazırlanarkən tərtib edilmiş SHM-də vergi daxilolmalarının proqnozlaşdırılması məsələlərini də həll etmək məqsədilə Vergilər Nazirliyinin köməyi ilə məhsula və istehsala vergilər daha geniş səpgidə, yəni istehsala vergilərin və məhsula vergilərin növləri göstərilməklə 15 sahə üzrə verilib. Bu isə vergi dərəcələrinin və ya vergi daxilolmalarının ümumi iqtisadi tarazlığa təsirini öyrənməyə və proqnozlaşdırmağa imkan verir.

**Elbrus CƏFƏRLİ**

# Fərdi sahibkarın onlayn qeydiyyatı

*Təcrübə göstərir ki, elektron xidmətlərdən daha səmərəli istifadə etmək üçün vergi ödəyicilərinin, ümumiyyətlə, vətəndaşların müntəzəm məlumatlandırılmasına ehtiyac var. Bunu nəzərə alaraq, Vergilər Nazirliyinin göstərdiyi elektron xidmətlər barədə təlimat səciyyəli yazıları diqqətinizə təqdim etməyi məqsədəuyğun hesab edirik...*



Fərdi sahibkarların onlayn qeydiyyatı xidmətindən ölkə vətəndaşları, əcnəbi və vətəndaşlığı olmayan şəxslər istifadə edə bilərlər. Xidmətin göstərilməsi üçün tələb olunan sənədlər isə fiziki şəxsin sahibkarlıq uçotu haqqında ərizə (xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə fərdi sahibkar tərəfindən sistemə daxil edilir), Azərbaycan vətəndaşları üçün şəxsiyyət vəsiqəsinin məlumatları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş qeydiyyat vəsiqəsinin məlumatlarıdır.

Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsinin məlumatları onlayn rejimində Daxili İşlər Nazirliyinin İdarələrarası Avtomatlaşdırılmış Məlumat-Axtarış Sistemindən (İAMAS), əcnəbilər və vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsində olan məlumatlar onlayn rejimdə Dövlət Miqrasiya Xidmətinin informasiya sistemindən əldə edilir. Bu xidmətdən istifadə üçün xidmət istifadəçisinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrəsi, parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır.

Fərdi sahibkarın e-qeydiyyatı xidməti İnternet Vergi İdarəsi portalının «Fərdi sahibkarların onlayn qeydiyyatı» bölümü üzərindən aparılır. Bu məqsədlə fərdi sahibkar istifadəçinin adı, şifrə və parolu daxil edir və «Daxil ol» düyməsini sıxır.

Bu halda ekrana elektron ərizə forması çıxır və istifadəçi həmin pəncərədə poçt əlaqəsinin aparılacağı ünvanı seçir.

♦ Fəaliyyət sahəsinin kodu daxil edilir və «Əlavə et» düyməsi basılır.

♦ Əvvəlki VÖEN (9 rəqəmli) daxil edilir, yoxlamaq üçün «Yoxla» düyməsi basılır.

♦ İstifadəçi kodu, parol, şifrənin qüvvədə olma intervalı daxil edilir (başlanğıc və son tarixlər).

Daxil edilmiş məlumatlar vizual yoxlanılır və əgər aparılmış əməliyyat doğrudursa, «Tanış oldum, məlumatların doğruluğunu təsdiqləyirəm» ifadəsinin qarşısındakı boş xana işarələnir və «İcra et» düyməsi sıxılır.

Sistem tərəfindən ekrana «Fərdi sahibkarın onlayn qeydiyyatı» ərizəsinin qəbul olunması haqqında «Bildiriş» çıxarılır və sənədə 16 rəqəmli qeydiyyat nömrəsi verilir.

Yuxarıdakı əməliyyatlardan sonra fiziki şəxsin onlayn qeydiyyat şəhadətnaməsi istifadəçinin «Gələnlər» qovluğuna düşür. İstifadəçi «Gələnlər» qovluğundan həmin sənədi taparaq kompüter «siçanının» sol düyməsini 2 dəfə sıxmaqla həmin sənəd barədə məlumatlarla tanış ola bilir.

Əsas sənədi PDF formatında görmək üçün istifadəçi ekrandakı linki açır: «Fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamə» ekrana çıxır.

Ərizə məlumatları sistemə daxil edilərək istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə qeydiyyata alınmış olur və ona 16 rəqəmli qeydiyyat nömrəsi verilir. «Vergi uçotu barədə şəhadətnamə»nin kağız daşıyıcılarda alınması üçün vergi ödəyicisinin özü və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən şəxsiyyəti təsdiq edən sənədlə Vergilər Nazirliyinin müvafiq yerli vergi orqanına müraciət olunmalı və xüsusi kitabda imza edilməlidir.

Xidmətdən imtina aşağıdakı hallarda baş verir:

♦ istifadəçinin şəxsiyyətini təsdiq edən sənədin pin-kodu üzrə Daxili İşlər Nazirliyinin və ya Dövlət Miqrasiya Xidmətinin informasiya sistemlərinə göndərilmiş sorğuya əsasən, müvafiq məlumatlar əldə edilmədikdə, qanunvericiliyə uyğun olaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qoyulmuş yaş məhdudiyyətinə görə;

♦ bəzi fəaliyyət növlərinə qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərlə bağlı.

Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir.

**AYTƏN**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

## Vergi borclarının alınması

Vergi borcları vergi ödəyicisinin özü tərəfindən bəyan edilmiş və ya vergi orqanının vergi ödəyicisinə hesabladığı vergi məbləğlərinin qanunvericiliklə müəyyən olunmuş müddətdə büdcəyə ödənilmədiyi zaman yaranır. Hesablanmış vergilərin büdcəyə vaxtında ödənilməməsi müxtəlif səbəblərdən, o cümlədən vergi ödəyicisinin kifayət qədər maliyyə vəsaitinin olmaması, vergi ödəyicisinin verginin ödənilməsindən bilərəkdən yayınması, vergi orqanının hesabladığı verginin məbləği ilə vergi ödəyicisinin razılaşmaması səbəblərindən irəli gələ bilər.

Beynəlxalq təcrübədə vaxtında ödənilməyən vergilərin vergi orqanları tərəfindən alınmasının müxtəlif metodları: vergi ödəyicilərinin bank hesablarına sərəncamların verilməsi, borclu vergi ödəyicisinin əmlaklarına həbs qoyulması, borcların vergi ödəyicisinin əmlaklarına yönəldilməsi, verginin vaxtında ödənilməsindən bilərəkdən yayınan vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb olunması və s. tətbiq olunur.

*«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 1 yanvar 2013-cü il tarixdən qüvvəyə minmiş Qanununa əsasən, dəyişikliklərin bir qismi vergi borclarının bank hesablarından alınmasına dair sərəncamın verilməsi qaydasının təkmilləşdirilməsi ilə bağlıdır*

Vergi borclarının alınması üçün vergi orqanları tərəfindən görülən tədbirlər, o cümlədən əmlaka həbs qoyulması və borcun əmlaka yönəldilməsi (o cümlədən bank hesablarındakı vəsaitə yönəldilməsi) İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına daxil olan bütün ölkələr üçün ümumi xarakter daşıyır. Bazar iqtisadiyyatı formalaşmış hüquqi dövlətlərdə xüsusi mülkiyyət hüququnun qorunmasına göstərilən qayğının təzahürü olaraq vergi ödəyicisinin mülkiyyət hüquqlarının məhkəmə qərarına qədər məhdudlaşdırılmasına çox az hallarda rast gəlinir. Buna yalnız vergi borcunun könüllü ödənilməsi ilə bağlı vergi orqanlarının həyata keçirdiyi bütün tədbirlər müsbət nəticə vermədiyi halda yol verilir.

Avropa ölkələrinin əksəriyyətində, o cümlədən Avstriya, Almaniya, Danimarka, Finlandiya və Fransada vergi orqanları vergi borclarının məcburi alınması ilə bağlı tədbirləri yalnız vergi ödəyicilərinə tələbnamə göndərilməsindən və tələbnamədə göstərilən müddət bitdikdən sonra həyata keçirə bilərlər. Bununla belə, ABŞ, Türkiyə, İsveçrə, Yaponiya və s. kimi bəzi ölkələrdə verginin ödənilməməsi riski yüksək olduqda, vergi borclarının məcburi alınması ilə bağlı tədbirlər tələbnamədə göstərilən müddət bitənədək də həyata keçirilə bilər.

Mütəxəssislərin fikrincə, vergi borclarının məcburi alınması ilə bağlı vergi orqanları tərəfindən görüləcək tədbirlərin müəyyən edilməsində bir sıra faktorların, o cümlədən tədbirin xarakterinin, onun vergi ödəyicisinin təsərrüfat fəaliyyətinə təsirinin, vergi borcunun yaranması əsaslarının və vergi növünün nəzərə alınması vacib amillərdir.

Təhlillər göstərir ki, vergi ödəyicilərinin özü tərəfindən bəyan edilmiş vergi məbləğləri üzrə yaranan borcların mübahisəsiz alınması mümkün olduğu halda, vergi orqanları tərəfindən əlaqəli məlumatlar və ya analogiya əsasında hesablanmış vergilər üzrə yaranmış borcların məcburi qaydada alınması heç də həmişə mübahisəsiz mümkün olmur. Belə hallara yoxlamalar zamanı hesablanmış əlavə vergi məbləğlərinin məcburi alınmasında daha çox rast gəlinir.

Qeyd olunanlar belə nəticəyə gəlməyə əsas verir ki, vergi orqanlarının hesabladığı vergi məbləğləri üzrə yaranmış borcların alınması zamanı vergi ödəyicilərinin hüquqlarının və onların qanuni mənafelərinin qorunmasına qanunvericiliklə təminat verilməsi əsas vəzifələrdən biri olmalıdır.

Yuxarıda göstərilənlər və vergi borclarının alınması sahəsində əldə olunmuş təcrübə nəzərə alınaraq, qeyd olunan məsələnin həlli istiqamətində irəli sürülmüş təkliflər «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunda öz əksini tapmışdır. Bu istiqamətdə aparılan əsas dəyişiklik vergi borclarının alınması məqsədilə vergi ödəyicilərinin bank hesablarına icra sənədi olan sərəncamın qoyulması hallarına dair müddəaların Vergi Məcəlləsinin 65-ci maddəsinə daxil edilməsidir.

Məcəllənin qeyd olunan maddəsində edilmiş dəyişikliklərə əsasən, vergi ödəyicisinin yazılı razılığı olduğu və vergi borcu vergi ödəyicisinin bəyan etdiyi vergilər əsasında yarandığı hallarda, bank hesablarına borcların alınmasına dair icra (ödəniş) sənədi olan sərəncam Vergi Məcəlləsinin 65.1-ci maddəsində müəyyən olunmuş müddət (5 gün) bitdikdən sonra qoyulur. Vergi borcu vergi orqanı tərəfindən hesablanmış vergilər, faizlər və tətbiq olunmuş maliyyə sanksiyaları hesabına yarandıqda, onun məcburi alınması borcların ödənilməsi barədə bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verilmədiyi halda həyata keçiriləcəkdir. Bildirişin alındığı tarixdən 30 təqvim günü müddətində məhkəməyə şikayət verildikdə isə bank hesabından borcun silinməsi məhkəmənin qanuni qüvvəyə minmiş qərarına uyğun olaraq yerinə yetirilir.

Qeyd etmək lazımdır ki, vergi orqanı tərəfindən hesablanmış vergilərin, faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının alınması üçün bank hesablarından vəsaitlərin silinməsi barədə icra sənədi olan sərəncamın verilməsi üçün 30 gün müddətinin ayrılması vergi ödəyicilərinin məhkəməyə şikayət etmək hüquqlarının genişləndirilməsini təmin etməklə yanaşı, borcların alınması zamanı vergi ödəyiciləri ilə vergi orqanları arasında yaranan mübahisələrin aradan qaldırılmasına müsbət təsir göstərəcəkdir.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### Kommersiya hüquqi şəxslərinin reyestr məlumatları

*Kommersiya hüquqi şəxslərinin reyestr məlumatları hansılardır və necə əldə olunur?*

*Kommersiya hüquqi şəxslərinin reyestr məlumatları elektron qaydada və ya sorğu əsasında əldə oluna bilər.*

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunun 14-cü maddəsinə əsasən qurumun reyestr məlumatlarına qurumun adı, qurumun hüquqi ünvanı, qurumun təşkilati-hüquqi forması, maliyyə ili, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (kommersiya qurumu üçün), qurumun hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri, təsisçi hüquqi şəxsdirsə onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar, qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri, hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı, kommandit ortaqlığında - hər bir kommanditçinin mayasının miqdarı, məhdud məsuliyyətli cəmiyyətdə və ya səhmdar cəmiyyətində - nizamnamə kapitalının miqdarı, hər bir təsisçinin mayasının miqdarı, direktorlar şurası (müşahidə şurası) yaradıldığı halda, onun hər bir üzvünün adı, soyadı, atasının adı və yaşayış yeri, qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi, fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar aiddir.

Qeyd edilən Qanunun 15.7-ci maddəsinə uyğun olaraq, dövlət reyestrindən çıxarışlar (kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) sorğu əsasında üçüncü şəxslərə də verilir. Kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar isə "Kommersiya sirri haqqında" Qanunun 4-cü maddəsinə əsasən kommersiya sirri hesab olunur. Bu baxımdan, kommersiya sirri hesab olunan həmin məlumatlar Qanunun 15.9-cu maddəsinə əsasən sorğu əsasında aşağıdakılara verilir:

- qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə, istintaq və təhqiqat orqanlarına;
- "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə;
- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada maliyyə monitorinqi orqanına;
- "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada məcburi icra orqanına;
- "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada vəkilə;
- həmin kommersiya hüquqi şəxsinin digər təsisçilərinə (iştirakçılarına);
- barəsində dövlət reyestrindən məlumatların verilməsi tələb olunan şəxsin razılığı ilə üçüncü şəxslərə.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 7.45-ci bəndində "Kommersiya qurumlarının dövlət reyestri məlumatlarının verilməsi" elektron xidmət kimi nəzərdə tutulmuşdur və elektron xidmətin göstərilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyinə həvalə olunmuşdur.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya
**s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz:

# Qeyri-neft sektorunun yeni inkişaf proqramı hazırlanır

*Azərbaycanın qeyri-neft sektorunun inkişafı ilə bağlı konsepsiya hazırlanır. Sənəddə neftdənkənar sahələrin sosial-iqtisadi inkişaf göstəriciləri ilə bağlı proqnozlar öz əksini tapıb. İqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənovanın sözlərinə görə, qarşıdakı onillikdə iqtisadiyyatın əsas ağırlıq mərkəzinə çevriləcək qeyri-neft sektorunda artım neft sektoru ilə müqayisədə bir neçə dəfə çox olacaq. 2013-cü ildə qeyri-neft sektorunda artım tempinin 7,9%, 2014-cü ildə 7,1%, 2015-ci ildə 5,9%, 2016-cı ildə isə 5,4% olacağı proqnozlaşdırılır. Bu isə ölkə iqtisadiyyatının şaxələndirilməsi ilə əlaqədar həyata keçirilən siyasətin mühüm nəticələr verəcəyini söyləməyə əsas verir.*

S.Həsənova qeyd etmişdir ki, proqrama əsasən, yaxın onillikdə ümumi daxili məhsulun artımının qeyri-neft-qaz sektorunun hesabına təmin edilməsi başlıca məqsədlərdəndir. Növbəti 10 il ərzində neft və qaz hasilatını sabit saxlamaqla iqtisadiyyatın artımının qeyri-neft sektoru hesabına təmin edilməsi nəzərdə tutulur. Maşınqayırma, kimya, metallurgiya, yüngül sənaye və turizm qeyri-neft iqtisadiyyatının aparıcı sahələri kimi müəyyənləşdirilib. Proqramda qeyri-neft iqtisadiyyatının daha da modernləşdirilməsi, qazanılmış uğurların möhkəmləndirilməsi, ölkəmizin daha da qüdrətlənməsi, hər bir vətəndaşın həyat səviyyəsinin yüksək standartlara çatdırılması başlıca məqsədlərdəndir. İlk növbədə, infrastruktur təminatının yaxşılaşdırılması və kommunal sektorun yenidən qurulması istiqamətində layihələr davam etdirilir. Bu proses regionlarda iş adamlarının fəaliyyəti, investisiya qoyuluşları üçün mühüm əhəmiyyət daşıyır. Hazırda bölgələrə qoyulan sərmayələrin həcmi artır, yeni müəssisələr yaradılır, iqtisadi artım vüsət qazanır.

Qeyri-neft-qaz sektoru üzrə gələcək inkişafın əsas təməl prinsiplərindən biri kimi sənayeləşmə xüsusi yer tutacaq. Proqnozlara görə, ortamüddətli inkişaf proqramlarının icrası sayəsində sənaye potensialı ölkə iqtisadiyyatında milli gəlir baxımından əhəmiyyətli yer tutacaq, sənayeləşmənin yüksək sürətlə davam etməsinə ölkənin zəngin valyuta ehtiyatları əlverişli impuls verəcək. Hökumət digər bir sahəni - İKT sektorundan əldə olunacaq gəlirləri ölkə iqtisadiyyatının inkişafının əsas maliyyə mənbələrindən biri hesab edir. Hazırda bu sahədən əldə olunan gəlirlərin həcmi illik 15% təşkil edir və bu göstərici ümumdünya orta göstəricisindən təxminən iki dəfə çoxdur. Eləcə də aqrar bölmə iqtisadi perspektiv baxımından ən cəlbedici sahə sayılır. İqtisadi məşğul əhalinin ən çox çalışdığı (45%) bu sektor hazırda aqrar sektor inkişaf tempinə



görə xüsusi fərqlənir. Hazırda aqrar bölmədə illik inkişaf tempi 10%-i ötüb. Dövlətin bu sahəyə dəstəyinin gücləndirilməsi ümumi daxili məhsulda kənd təsərrüfatının payının artmasına gətirib çıxarmaqla yanaşı, iqtisadi fəal əhalinin də sayının əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olacaq.

Bütün bu reallıqlar iqtisadiyyatın qeyri-neft sektorunda vergi potensialının da nəzərdən keçirilməsini əsas tələblər kimi aktuallaşdırır. İnkişaf ssenarisinə əsasən, Azərbaycanın dövlət büdcəsinin gəlirlər hisssəsinin formalaşması yaxın illərdə qeyri-neft sektorunun hesabına mümkün olmalıdır.

Qeyri-neft sektorundan daxil olan gəlirlərin büdcədə xüsusi çəkisinin artmasında vergilərin rolu olduqca böyükdür. Vergi sistemində elektron texnologiyaların geniş tətbiqi, bəyannamələrin elektron formada qəbulu, sahibkarlıq subyektlərinin «vahid pəncərə» sistemi ilə qeydiyyatdan keçməsi, onların fəaliyyətinin stimullaşdırılması ilə bağlı tədbirlər qeyri-neft-qaz sektorundan daxil olan vergi daxilolmalarının artması üçün mühüm stimul yaradır.

Yaxın 10 illik dövrün inkişaf istiqamətləri nəzərə alınmaqla vergi potensialının qiymətləndirilməsi əsas meyarlardandır - vergi daxilolmaları üzrə proqnozların qarşıdakı iqtisadi artıma, innovativ iqtisadiyyata uyğunlaşdırılması cidi vəzifələr kimi qarşıda durur. Qeyri-neft sektorunda yüksək inkişaf meyilləri vergi bazasının gücləndirilməsini, vergi siyasətinin daha da təkmilləşdirilməsini, elektron ödənişlərin tətbiqinin genişləndirilməsini zəruri edir.

**Elbrus CƏFƏRLİ**

# «Visa» nağdsız ödənişlərə ictimai marağı artırmağa çalışır

## *İrina Kamxadze: «Azərbaycanda plastik kartlarla ödənişlərin həcmi xeyli artıb»*



Nağdsız ödəniş sisteminin inkişafı, vətəndaşların plastik kartlarla alış-verişə həvəsləndirilməsi prosesində dövlət qurumları ilə yanaşı, bankların, ticarət və xidmət müəssisələrinin də fəallığı müsbət hal kimi qiymətləndirilməlidir. Müntəzəm şəkildə gerçəkləşdirilən belə həvəsləndirici kampaniyalar istehlakçıların nağdsız ödənişlərə marağının artmasına, ümumən ölkə üzrə nağdsız dövriyyənin həcminin yüksəlməsinə xidmət edir.

«Visa» beynəlxalq ödəniş sisteminin 2012-ci il noyabrın 1-dən 2013-cü il yanvarın 31-dək «Rahat Market» mağazalar şəbəkəsi ilə «Visa kartla ödə, təminatlı hədiyyə qazan» devizi altında keçirdiyi stimullaşdırıcı kampaniya paytaxt sakinlərinin plastik kartlarla alış-verişə həvəsləndirilməsi baxımından faydalı olub. Kampaniya müddətində «Visa» plastik kartları ilə alış-verişin həcmindən asılı olaraq, istehlakçılara müxtəlif hədiyyələr verilib.

«Şamaxı yolu» üzərində yerləşən «Rahat market»də müşahidələr zamanı alıcıların kampaniyaya böyük maraq göstərdiyinin şahidi olduq. 2012-ci ilin əvvəlində POS-terminalın ümumiyyətlə olmadığı bu marketdə son aylar nağdsız ödəniş edən müştərilərin sayı xeyli artıb. Burada alıcıları kampaniya barədə məlumatlandırmaqla, nağdsız ödənişlər təşviq edilir.

«Visa»nın layihəsini həyata keçirən şirkətin marketdəki əməkdaşı Lalə Axundova deyir: «1-100 manat məbləğində ödənişləri nağdsız formada həyata keçirən alıcılar «Visa»dan soyuducu üçün maqnitlər, ekoloji çantalar, brend çətirlər, termo-fincanlar, habelə portmanat və ya kompüter üçün «USB» əldə edirlər. «Rahat market» özü isə hər 25 manat nağdsız ödənişə görə alıcılara bir ədəd lotereya bileti verir. 2013-cü il fevralın 11-də keçiriləcək lotereyada 2 ədəd «Mazda 2» avtomobili və digər qiymətli məişət avadanlıqları oynanılacaq. Bu cür kampaniyalar, şübhəsiz, vətəndaşları plastik kartlarla ödənişlərə həvəsləndirir. Gün ərzində 50-dən çox alıcı ödənişi plastik kartlarla edərək müxtəlif hədiyyələr qazanır».

Marketdə plastik kartla ödəniş edən Binəqədi rayon sakini Kənan Nəsirov kampaniyanın alıcılar üçün cəlbedici olduğu qənaətindədir: «Əvvəllər plastik kartıma köçürülmüş maaşımı manatına qədər nağdlaşdırırdım. Ötən ilin ortalarından buna ehtiyac qalmayıb. Çünki indi əksər ticarət mərkəzlərində və mağazalarda POS-terminallarla ödəniş etmək olur. Nağdsız ödəniş zamanı alıcılara müxtəlif hədiyyələrin verilməsini alqışlayıram. Fikrimcə, bu addımlar vətəndaşlarda nağdsız ödəniş vərdişlərinin yaranmasına gətirib çıxaracaq».

Digər istehlakçı Elvin Qədirov: «İndiyə qədər «Rahat market»də bir neçə dəfə alış-veriş etmişəm və hər dəfə də mənə hədiyyələr verilib. Kartla alış-verişin üstünlüyü də odur ki, ödədiyim pulun qalığını gözləməyə, yaxud üstümdə nağd pul gəzdirməyə ehtiyac qalmır».

«Visa» beynəlxalq ödəniş sisteminin Cənubi Qafqaz nümayəndəliyinin rəhbəri İrina Kamxadze bildirib ki, Azərbaycanda nağdsız ödəniş sisteminin inkişafına xidmət edən layihələr davam etdiriləcək. Şirkətin 2013-cü il fevralın 1-dən «Neptun» marketlər şəbəkəsi ilə başladığı növbəti həvəsləndirici kampaniya aprelin 30-dək davam edəcək. Eləcə də bu il mayın 1-dən iyunun 30-dək «City Mart» marketlər şəbəkəsi ilə də nağdsız ödənişlərin stimullaşdırılmasına xidmət edən kampaniya təşkil olunacaq.

İrina Kamxadze qeyd edib ki, respublikanın 28 bankı «Visa»nın həyata keçirdiyi kampaniyanı dəstəkləyir. Onun sözlərinə görə, son aylarda Azərbaycanda nağdsız dövriyyənin həcmində nəzərəçarpacaq artım müşahidə edilir: «Bu sahədə müsbət meyillərin gücləndiyini görürük. Bu özünü təkcə plastik kartların sayında deyil, həm də nağdsız dövriyyənin həcminin artımında göstərir. Zaman keçdikcə vətəndaşlar ticarət və xidmət müəssisələrində plastik kartlardan daha çox istifadə edirlər. Razılıqla qeyd edə bilərik ki, 2012-ci ilin ikinci yarısında Azərbaycanda «Visa» kartları ilə ödənişlərin həcmi 2011-ci ilin eyni dövrünə nisbətən 54% artıb. Banklar və iri ticarət şəbəkələri ilə keçirdiyimiz kampaniyalar zamanı nağdsız ödənişlər vətəndaşlar üçün ikiqat maraqlı olur».

**S.MUSTAFAYEV**

# Vergilər mövzusunda açıq dərs

Fevralın 15-də Bakı Şəhər Vergilər Departamenti paytaxtdakı 21 saylı orta məktəbin 9-cu sinif şagirdləri üçün vergilərə dair açıq dərs təşkil etmişdir. Departamentin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəisi Məhərrəm Əmiraslanov, məktəbin direktoru Ceyhun Bayramlı və müəllimə Həqiqət Bayramova uşaqlar qarşısında çıxış etmişlər. Açıq dərsdə vergilərin əhəmiyyəti, hal-hazırda tətbiq edilən dövlət və yerli (bələdiyyə) vergilər, rüsumlar, dövlət büdcəsinin gəlir və xərclərinin mənbə və istiqamətləri, nağdsız ödənişlərin əhəmiyyəti səhnəciklər vasitəsilə nümayiş etdirilmiş, vergilər mövzusunda atalar sözləri və şeirlər söylənilmiş, dövlət büdcəsinin vəsaiti hesabına aparılan investisiya layihələri barədə məlumatlar dinlənilmişdir.



## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Cari ilin yanvar ayında ölkə əhalisi **2,3 mlrd.** manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə **5,3%** çox gəlir əldə etmiş, onun orta hesabla hər nəfərə düşən həcmi **3,9%** artaraq **246,1 manat** olmuşdur.
- Bu ilin yanvarında Azərbaycanın sənaye sahələrində **3 mlrd. manatlıq** məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Dövlət Statistika Komitəsindən bildirmişlər ki, qeyri-neft sektorunda **2,3%** artım, neft sektorunda **0,4%** azalma müşahidə olunmuşdur.

# Yoxsulluqla mübarizə tədbirləri gücləndirilir

*Sosial problemlərin həlli istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq, son illər ölkədə yoxsulluğun səviyyəsi ciddi şəkildə azalıb. 2003-cü ildən Azərbaycanda yoxsulluq həddi 8 dəfədən çox azalaraq 49%-dən 2012-ci ilin yekunlarına görə 6%-ə enib. 2004-cü ildə yoxsulluq həddi ilə bağlı müəyyən edilmiş indeks 38,8 manat olduğu halda, 2012-ci ildə bu göstərici 93 manata yüksəlib.*

Dünya Bankı Şərqi Avropa və MDB-nin inkişaf etməkdə olan dövlətləri üçün yoxsulluq həddini bir nəfər üçün gündəlik 4 dollar, inkişaf etmiş ölkələr üçün isə 14,4 dollar civarında müəyyənləşdirib. Qurumun ekspertləri son illər Azərbaycanda yoxsulluğun aradan qaldırılması sahəsində əldə olunan göstəriciləri də müsbət dəyərləndirirlər. Hesab olunur ki, həyata keçirilən tədbirlər qısa müddətdə respublikada mütləq yoxsulluğun nisbi yoxsulluqla əvəzlənməsinə imkan verəcək. Aydınlıq üçün qeyd edək ki, mütləq yoxsulluq insanın bioloji tələbatının ödənilməsini təmin edən həyati əhəmiyyətli resurslara olan ehtiyacla şərtlənir, nisbi yoxsulluğun əsas əlamətini isə bir təbəqənin digəri ilə müqayisəsi təşkil edir.

Yoxsulluq probleminin həlli Prezident İlham Əliyevin sosial siyasətinin prioritetlərindən biridir. «Azərbaycanda heç kim yoxsulluq şəraitində yaşamamalıdır», - deyən ölkə başçısı ötən 8 ildə bu məqsədə xidmət edən bir sıra fərman və sərəncamlar imzalayıb. Bu sənədlərin icra edilməsi üçün atılmış addımlar sayəsində hər il ehtiyac meyarının və yaşayış minimumunun artırılması da yoxsulluğun ləğvi istiqamətində mühüm addımlardan sayılır. Ehtiyac meyarının həddi 2010-cu ildən 65 manat, 2011-ci ildən 75 manat, 2012-ci ildən 84 manat təşkil edib. 2013-cü il yanvarın 1-dən isə bu məbləğ 93 manata yüksəlib. Bununla yanaşı, 2004-2011-ci illər ərzində minimum əməkhaqqının məbləği 17 dəfə artırılıb. 2004-cü ilin əvvəllərində bu rəqəm 5,5 manat təşkil etdiyi halda, hazırda 93,5 manatdır. Minimum əməkhaqqı, yaşayış minimumu və ehtiyac meyarının məbləğinə görə Azərbaycan MDB-də ən yaxşı göstəricilərə malik ölkələrdəndir: respublikamız qeyd olunan sosial göstəricilər üzrə Rusiya və Qazaxıstandan sonra 3-cü sırada yer alır.

Yoxsulluğun ləğvi istiqamətində mühüm addımlardan biri də ünvanlı dövlət sosial yardım sisteminin geniş tətbiqidir. 2012-ci ildə respublikada 630 min nəfər ailə üzvünü əhatə edən 140 mindən çox ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib. Ayda orta hesabla hər ailəyə 110,26 manat, hər ailə üzvünə isə 24,78 manat ünvanlı yardım göstərilir. 2006-cı ildə ehtiyac meyarı yaşayış minimumuna nisbətdə 51,7% təşkil edirdisə, hazırda bu nisbət 77,8%-dir. Bu müsbət dinamika 2015-ci ilədək ehtiyac meyarının məbləğinin yaşayış minimumuna çatdırılmasına imkan verəcək.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası qəbul etdiyi «Minilliyin İnkişaf Məqsədləri»ndə 2015-ci ilədək yoxsulluğun səviyyəsinin yarıyadək azaldılmasını əsas meyar kimi müəyyən edib. Azərbaycan da bu təşəbbüsə qoşularaq qarşıdakı illərdə əhalinin əsas ehtiyaclarının daha dolğun ödənilməsi üçün zəruri tədbirlərin görülməsinə çalışır. Bu məqsədlə əmək haqları, pensiyalar, sosial müavinətlər ilbəil artırılır, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi diqqətdə saxlanılır. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli sərəncamı ilə təsdiqlənmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması məqsədinə xidmət edir. Proqrama əsasən, 2015-ci ilədək əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması; səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması; qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi; təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması; sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi; ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi və s. tədbirlər nəzərdə tutulur.

Yoxsulluğun azaldılması həm də iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərinin səmərəli istifadə olunması, sahibkarlığın inkişafına yaradılan şərait, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olub. Bundan başqa, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin, o cümlədən əmək haqlarının tənzimlənməsi, həssas qrupların məşğulluğunun inkişaf etdirilməsi yoxsulluq probleminin çözümündə böyük əhəmiyyət kəsb edib. 2015-ci ilə kimi ölkədə yoxsulluğun tamamilə həlli qarşıya ciddi vəzifələrdən biri kimi qoyulub.

**S.MUSTAFAYEV**

# İpoteka şərtləri sadələşdirilir

*Prezident İlham Əliyevin müvafiq fərmanı ilə ipoteka kreditlərinin verilməsi şərtlərində bir sıra dəyişikliklər edilmişdir. Mövzunu daha ətraflı şərh etmək üçün iqtisadçı ekspert Vüqar Bayramova müraciət etdik.*

***Güzəştli ipoteka kreditinin məbləğinin artırılmasına ehtiyac vardı...***

V.Bayramov qeyd edir ki, güzəştli ipoteka kreditlərinin məbləğinin 35 min manatdan 50 min manata qaldırılması müsbət haldır: bu dəyişiklik vətəndaşlara sosial ipoteka kreditləşməsindən daha səmərəli istifadə etməyə və paytaxtda mənzil almaq imkanlarının artmasına xidmət edəcək: «Nəzərə alsaq ki, ölkədə güzəştli ipoteka kreditlərinin tətbiqinə 2007-ci ildən başlanmışdır - o zaman Bakıda mənzil almaq üçün 35 min manat yetərli idi. Lakin son 6 ildə şəhərdə mənzillərin qiyməti xeyli yüksəldib. Bu baxımdan, məbləğin qaldırılması zəruri idi».

Bütün kateqoriyadan olan vətəndaşların ipoteka kreditləşməsindən rahat istifadə etmələri üçün ipoteka şərtlərinin təkmilləşdirilməsi prosesi davam etdirilməlidir. Ekspert hesab edir ki, adi ipoteka kreditləri Azərbaycan İpoteka Fondunun (AİF) yerləşdirdiyi istiqrazların satışından əldə olunan mənbələr hesabına təklif edildiyi üçün Mərkəzi Bank adi ipotekanın verilməsi şərtlərində dəyişikliklərin edilməsində sərbəstdir. Bu sahədə, ilk növbədə, faiz dərəcələrinin məbləğlərinə dəyişikliklərin edilməsinə ehtiyac duyulur: «Məlumdur ki, adi ipoteka kreditləri 8%-lə verilir, AİF isə istiqrazları 3%-lə yerləşdirir. Beləliklə, faktiki olaraq adi ipoteka kreditlərinin verilməsi ilə istiqrazların yerləşdirilməsi dərəcələri arasında 5% fərq yaranır ki, bu da AİF-ə və müvəkkil banklara adi ipoteka faizlərini ilkin mərhələdə 7%-ə, kredit resurslarının ucuzlaşması nəticəsində növbəti mərhələdə isə 6%-ə endirməyə imkan verir. Faiz dərəcələrinin azaldılması isə, öz növbəsində, AİF-ə və müvəkkil banklara ipoteka kreditlərinin verilməsindən gəlir əldə etməyə və vətəndaşların aylıq ipoteka ödənişlərinin azalmasına səbəb olacaq».

***Elektron ipoteka sisteminin tətbiqi vətəndaşların vaxt və vəsait itkisinin qarşısını alacaq***

İpoteka kreditlərinin alınması üçün tələb olunan sənədlərin sayının azaldılması istiqamətində də müəyyən dəyişikliklər edilə bilər. Hazırda ipoteka almaq üçün 8 sənəd tələb olunur. Artıq elektron ipoteka sisteminin yaradılması istiqamətində müəyyən tədbirlər həyata keçirilir və cari ildə sistemin tətbiq edilməsi nəzərdə tutulur. Ölkədə elektron ipoteka sisteminin tətbiqi vətəndaşların müraciətlərinə baxılmasında növbəliliyin təmin edilməsinə, biznes proseslərinin şəffaflığının daha da artırılmasına, prosedurların, sənədlərin sayının ən azı iki dəfə azalmasına xidmət edəcək. Eyni zamanda, yeni sistem vətəndaşların vaxt və vəsait itkisinin də qarşısını alacaq.

***İlkin ödəniş problemi***

İpoteka kreditlərinin alınması sahəsində vətəndaşları narahat edən məsələlərdən biri ilkin ödəniş problemidir. 50 min manatlıq ipoteka krediti götürən vətəndaş 8-10 min manat məbləğində ilkin ödəniş etməlidir ki, bu da aztəminatlı ailələr üçün çətinlik yaradır. Ölkədə İpoteka Zəmanət Fondu yaradıldıqdan sonra vətəndaşlar ilkin ödəniş etmək məcburiyyətində qalmayacaq və yüz faizlik ipoteka krediti almaq imkanı əldə edəcəklər...

***Ölkə iqtisadiyyatında ipoteka kreditinin həcmi artır***

Ekspert qeyd edir ki, son dövrlər istər vətəndaşlar, istərsə də dövlət tərəfindən ipotekaya maraq və diqqətin artdığı müşahidə edilir. 2013-cü ildə sosial ipotekanın maliyyələşdirilməsinə dövlət büdcəsindən 40 milyon manat ayrılması nəzərdə tutulur ki, bu da 2012-ci illə müqayisədə 2 dəfə çoxdur. Qeyd edək ki, AİF-in xətti ilə bu ilin yanvarında 1,7 milyon manat məbləğində kredit verilib - bu, ipoteka kreditləşməsinə yönəlmiş vəsaitlərdən 17,9% azdır. 2012-ci ildə bankların əvvəllər ayırdığı kreditlərin yenidən maliyyələşməsinin ümumi həcmi 91,15 milyon manat təşkil edib. İl ərzində AİF 36 milyon manat həcmində istiqraz yerləşdirib.

AİF-in xətti ilə 2009-cu ildən 2012-ci ilə qədər 344,39 milyon manatdan çox ipoteka krediti ayrılıb: 2009-cu ildə 76,9 milyon manat, 2010-cu ildə 97,08 milyon manat, 2011-ci ildə 95,64 milyon manat, 2012-ci ildə 74,77 milyon manat. Bu ilin yanvarında banklar tərəfindən əvvəl verilmiş kreditlərin təkrar maliyyələşdirilməsinin ümumi həcmi 2,68 milyon manat (2012-ci ilin analoji dövrünün göstəricisindən 42,86% az) təşkil edib. 2013-cü il ərzində Fond tərəfindən ümumilikdə 100 mln. manat məbləğində ipoteka kreditinin verilməsi proqnozlaşdırılır.

***Güzəştli və adi ipotekanın şərtləri***

İpoteka kreditləri üzrə güzəştlərdən gənc ailələr, şəhid ailəsinin üzvləri, Milli Qəhrəmanların özləri, yaxud ailə üzvləri, məcburi köçkünlər və ya onlara bərabər tutulan şəxslər, üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyənlər, elmi dərəcəsi olanlar, idman sahəsində xüsusi xidmətləri olanlar istifadə edə bilərlər və bu siyahıya artıq hərbçilər də əlavə olunub.

Adi ipoteka krediti alan zaman isə ipoteka kreditləri üzrə ödəniləcək aylıq məblər borcalanın aylıq məcmu gəlirinin 70%-dən çox olmamalıdır. Kreditin son ödəniş tarixinə borcalanın yaşı qanunvericiliklə müəyyən olunmuş pensiya yaş həddindən yuxarı olmamalıdır.

Qeyd edək ki, adi ipoteka krediti 8%-lə maksimum 50 min manat, güzəştli ipoteka isə 4%-lə maksimum 50 min manat məbləğində götürülə bilər. İlkin ödəniş adi ipotekada 20%, güzəştli ipotekada isə 15%-dir. Kreditin götürülməsinin maksimal müddəti adi ipotekada 25, güzəştli ipotekada 30 ildir.

V.Bayramovun təxmininə görə, gələcəkdə güzəştli kateqoriyaya daxil olan əhali təbəqəsinin artması mümkündür: «Hesab edirəm ki, güzəştli ipoteka kreditlərindən istifadə edənlərin kateqoriyasına yenidən baxılmasına və artırılmasına ehtiyac var. Buraya Qarabağ müharibəsi əlillərini, uzun müddət jurnalistika sahəsində çalışan qələm adamlarını da aid etmək olar».

**Arzu İBRAHİMOVA**




***İpoteka kreditləri üzrə maliyyə resurslarının dinamikası (mln. manat)***

***Borcalanların yaş həddi (31.01.13)***




# Daşınmaz əmlakın icbari sığortası

*«İcbari sığortalar haqqında» Qanun əsasında daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə icbari sığorta tətbiq edilir. Sığortanın bu növü ilə hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələri, yaşayış evləri, binalar və mənzillər, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakı sığortalana bilər. Ölkə qanunvericiliyi ilə icazə verilməyən yerlərdə inşa edilmiş, sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan və qəzalı vəziyyətdə olan daşınmaz əmlak isə icbari sığortaya cəlb olunmur.*

Yaşayış binalarının, evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir. Sığorta məbləğinə gəlincə, bu, Bakı şəhəri üçün 25000 manat, Gəncə, Sumqayıt, Naxçıvan şəhərləri üçün 20000 manat, digər yerlər üçün 15000 manat müəyyənləşdirilib. Sığorta haqqı isə, müvafiq olaraq, 50 manat, 40 manat, 30 manatdır.

***Hansı hallar sığorta hadisəsi sayılır...***

Daşınmaz əmlakın sığorta risklərinin - yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, təbii fəlakətlər (zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi), üçüncü şəxslərin hərəkətlərinin baş verməsi nəticəsində zədələnməsi, məhv olması sığorta hadisəsi hesab olunur. Sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi, hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması, qrunt sularının səviyyəsinin dəyişməsi, suyun borulardan və ya rezervuardan şaxtavurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması halları isə sığorta hadisəsi hesab olunmur.

***Kimlər əmlakını sığortalaya bilər...***

Mülkiyyətində daşınmaz əmlak olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxs həmin əmlakla bağlı icbari sığorta müqaviləsi bağlamaq üçün daşınmaz əmlakın icbari sığorta növünü aparmağa icazəsi olan hər hansı sığortaçını seçməkdə sərbəstdir. Ölkədə daşınmaz əmlakın icbari sığortası üzrə fəaliyyət göstərməyə 11 sığorta şirkətinin icazəsi var. Dövlət Sığorta Xidmətindən verilən məlumata görə, ötən il ərzində icbari sığortalar üzrə 127 mln. 515 min 927,30 manat sığorta haqları, 18 mln. 540 min 312,24 manat sığorta ödənişləri edilib. Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta haqları 11 mln. 410 min 566,44 manat, sığorta ödənişləri 909.067,29 manat təşkil edib.

Sığortaçı əmlaka dəyən zərərlə bağlı öhdəliklərini ödəmə qabiliyyətinin olmamasına görə yerinə yetirə bilmədikdə, zərərin əvəzi sığorta olunanın müraciəti əsasında İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişi verilməklə ödənilir. İcbari Sığorta Bürosu tərəfindən daşınmaz əmlakın icbari sığortası üzrə hələlik heç bir kompensasiya ödənişi edilməyib.

***Vətəndaşlar əmlaklarını sığortalamağa maraq göstərmirlər***

Göründüyü kimi, daşınmaz əmlakın icbari sığortası əmlak sahiblərinə sığorta hadisəsi zamanı kifayət qədər böyük məbləğdə təminat verir. Lakin bu, vətəndaşların əmlaklarını sığortalamaq istəyinə o qədər də təsir etmir. Hələ də böyük əksəriyyət əmlakın sığortalanmasının lazımsız olduğunu düşünür. İqtisadçı-ekspert Azər Mehtiyev bunun birinci səbəbini vətəndaşların sığorta riskini dərk etməmələrində görür. Onun sözlərinə görə, insanların əksəriyyətində əmlakına heç bir hadisənin baş verməyəcəyinə dair əminlik var: «Bir çox vətəndaşlar bu məntiqlə əlavə xərc çəkib əmlakını sığorta etdirməyi lazım bilmirlər».

Ekspertin sözlərinə görə, insanlara sığortanın mahiyyəti düzgün izah edilməlidir. Bunun üçün sığorta şirkətləri geniş maarifləndirmə tədbirləri aparmalıdırlar: «İnsanlar bilməlidirlər ki, cüzi məbləğlə ödəniş edib əmlakı sığortalamaq gələcəkdə baş verən böyük itkinin qarşısını ala bilər». Vətəndaşların əmlakın sığortalanmasına soyuq yanaşmalarının əsas səbəblərindən biri də sığorta şirkətlərinə etibarın olmaması ilə bağlıdır. Bəziləri düşünürlər ki, ödəniş edib əmlakı sığorta etdirəcəklər, sığorta hadisəsi baş verdikdə isə sığorta şirkətlərindən heç bir kompensasiya ala bilməyəcəklər. O səbəbdən də sığorta şirkətləri əhalinin maarifləndirilməsinə xüsusi diqqət yetirməlidirlər.

A. Mehtiyev əmlak sığortasının əhatə dairəsinin geniş olmamasının digər səbəbini isə bir çox yaşayış evlərində mülkiyyəti təsdiq edən sənədlərin olmamasında görür.

**AYTƏN**

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən saylarımızda**

**Sətir 2.2.1.5 - «Sair kreditor borcları».**
**«dövr ərzində daxil olmuşdur» sütununda:** Əsasən 60, 65, 67, 69, 70, və 76 №-li hesabların kredit dövriyyəsi üzrə illik yekun məbləği əks etdirilir. Məsələn, DB20 - KR60, DB26 - KR65, DB26 - KR76, DB44 - KR70, DB20 - KR69 ikili yazılışları. Lakin yekun məbləğdən göstərilən hesabların qarşılıqlı müxabirləşməsi nəticəsində yaranan məbləğlər çıxılmalıdır. Məsələn, DB70 - KR68, DB70 - KR69 müxabirləşməsi nəticəsində yaranan məbləğlər təkrar, yəni həm 69№-li, həm də 68№-il hesabda bir daha nəzərə alınmaması üçün ümumi yekun məbləğdən çıxılmalıdır.
**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* Burada 60, 65, 67, 69, 70, və 76 №-li hesabların debet dövriyyəsi üzrə illik yekun məbləğini əks etdirmək də olar. Lakin daha qısa hesablama üçün sadə qayda da müəyyənləşdirmək olar. Bunun üçün 60, 65, 67, 69, 70, və 76 №-li hesabların kredit üzrə ilin sonuna qalıq dəyəri Əlavənin 2.2.1.5-ci sətri üzrə «hesabat dövrünün sonuna» sütunundakı xanaya yazılır. Sonra da həmin hesablar üzrə ilin əvvəlinə (və ya əvvəlki ilin Əlavəsinin 2.2.1.5-ci sətri üzrə ilin sonuna) qalıq dəyəri ilə Əlavənin «dövr ərzində daxil olmuşdur» sütununda yazılan dövriyyə toplanır və Əlavənin «hesabat dövrünün sonuna» sütunundakı xanaya yazılan məbləğ çıxılır. Alınan məbləğ Əlavənin «təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda «silinmişdir» xanasında əks etdirilir.

*Ləğv edilmişdir:* əvvəlki və cari hesabat dövründə alınmış malların, işlərin və xidmətlərin məbləğləri kimi 60, 65, 67, 69, 70, və 76 №-li hesabların kreditində əks etdirilən və sonradan verilməsi (geri qaytarılması) mümkün olmayan və ya kreditor tərəfindən bağışlanılan (verilməməsi barədə qərar qəbul edilən kreditor borc) məbləğləri kimi ləğv edilən dövriyyələr göstərilir. Məsələn, DB 60, 65, 67, 69, 70, 76 - KR 80, 86, 87, 88 ikili yazılışları.

Yuxarıda göstərilən izahlar 60, 65, 67, 69, 70, və 76 №-li hesablar üzrə ilin sonuna kredit qalığı qaldığı halda düzgün hesab edilir. Bu hesablar üzrə ilin sonunda debet qalığı da yarana bilər. Əslində, bu hesabların mahiyyətinə görə debet qalığı olmamalıdır. Əgər debet qalığı yaranarsa, bu məbləğ verilmiş avans kimi nəzərə alınmalı və DB61 - KR 60, 65, 67, 69, 70, 76 ikili yazılışı verilməklə qalıqlar «0»a çatdırılmalıdır. Sonra da yuxarıda göstərilən qaydada Əlavənin 2.2.1.5-ci sətri doldurulmalıdır.

***Bir misal.*** Vergi ödəyicisinin hesabat ilində əməliyyatları aşağıdakı kimi olmuşdur *(bax: cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: cədvəl 2)*.

Bu halda, həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: cədvəl 3)*.

Cədvəldən göründüyü kimi, 60, 65, 67, 69, 70, və 76 №-li hesabların kredit dövriyyəsi üzrə yekun məbləğ 20880 manat olmasına baxmayaraq, Əlavədə 20540 manat göstərilib, həmçinin həmin hesablar üzrə yekun debet dövriyyəsi 19150 manat göstərilməsinə baxmayaraq, Əlavədə 18810 (18010 + 800) manat göstərilib. Son qalıq məbləği isə düzgündür.

Əlavənin 2.2.1.5-ci sətrinin «dövr ərzində daxil olmuşdur» sütununda 20880 manat əvəzinə 20540 manatın göstərilməsinə aydınlıq gətirək. Müxabirləşmələrdə göstərilən DB70 - KR 68 = 280 manat və DB70 - KR69 = 60 manat ikili yazılışları üzrə cəmi yaranan 340 manat göstərilən hesabların qarşılıqlı müxabirləşməsi nəticəsində yaranan məbləğlər olduğuna görə, təkrarən dövriyyədə nəzərə alınmaması üçün yekun dövriyyədən (20880 manatdan) çıxılmalıdır, yəni 20880 - 340 = 20540 manat. Əlavənin «təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda ümumi əks etdirilməli məbləğ riyazi hesablama nəticəsində tapılır: 2450 + 20540 - 4180 = 18810 manat, yəni «ləğv edilmişdir» xanasında 800 manat yazıldığını nəzərə alsaq, «silinmişdir» xanasında da 18010 (18810 - 800) manat əks etdirilməlidir.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Malsatanlardan materiallar alınmışdır | 10 | 60 | 15000 |
| Alınmış materialların dəyəri ödənilib | 60 | 51 | 12000 |
| Malsatanlara olan borcun bir qismi bağışlanılıb | 60 | 80 | 800 |
| İşçilərə əmək haqqı hesablanmışdır | 20 | 70 | 2000 |
| Əmək haqqından gəlir vergisi tutulmuşdur | 70 | 68 | 280 |
| Əmək haqqından 3% sosial sığorta haqqı tutulmuşdur | 70 | 69 | 60 |
| İşçilərə əmək haqqı ödənilmişdir | 70 | 50 | 1660 |
| Məcburi sosial sığorta haqqı hesablanmışdır – 22% | 20 | 69 | 440 |
| Dövlət büdcəsinə vergi ödənilib | 68 | 51 | 300 |
| Məcburi sosial sığorta haqqı ödənilib | 69 | 51 | 550 |
| Müxtəlif inzibati xərclər hesablanmışdır | 26 | 76 | 3100 |
| Müxtəlif xərclərin haqqı ödənilib | 76 | 51 | 3500 |

Cədvəl 2

| Hesab №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | DEBET | KREDİT | DEBET | KREDİT | DEBET | KREDİT |
| 60 | Malsatan və podratçılarla hesablaşmalar | | 1400 | 12800 | 15000 | | 3600 |
| 68 | Büdcə ilə hesablaşmalar | | 120 | 300 | 280 | | 100 |
| 69 | Sosial sığorta üzrə hesablaşmalar | | 70 | 550 | 500 | | 20 |
| 70 | Əməyin ödənişi üzrə işçi heyəti ilə hesablaşmalar | | 0 | 2000 | 2000 | | 0 |
| 76 | Müxtəlif debitor və kreditorlarla hesablaşmalar | | 860 | 3500 | 3100 | | 460 |
| | **Cəmi kreditor hesablar üzrə** | **0** | **2450** | **19150** | **20880** | **0** | **4180** |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| **2.2.1.5 Sair kreditor borcları** | 20540 | Təqdim edilmişdir:<br>Silinmişdir: 18010<br>Ləğv edilmişdir: 800 | 4180 |

# Etimadı doğrultmağa calışacağıq

Bu günlərdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) IV qurultayı keçirilib. Həmkarlar təşkilatlarını təbrik edən Prezident İlham Əliyev fevralın 4-də imzaladığı sərəncamla respublikamızın sosial-ictimai həyatında göstərdikləri



xidmətlərinə görə bir qrup şəxsi «Tərəqqi» medalı ilə təltif edib. Onların arasında Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Məmməd Məmmədov da var. Bu münasibətlə Məmməd müəllimi təbrik edib, onun fikirlərini öyrəndik:

- Həmişə olduğu kimi, bundan sonra da çalışacağıq ki, dövlətimizin başçısının göstərdiyi bu etimadı doğruldaq, fəaliyyətimizi onun tapşırıq və tövsiyələrinə uyğun quraq. Təmsil etdiyim Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi hər zaman işçilərin əmək hüquqlarının qorunması, əmək intizamının gücləndirilməsi, onların sosial şəraitinin yaxşılaşdırılmasına böyük diqqət yetirib. Nazirliyimizin bütün strukturlarında, departament və ərazi vergilər idarələrində həmkarlar ittifaqlarının yaradılması tam təmin olunub, üzvlərin sayı artıb. Bu, onu göstərir ki, həmkarlar ittifaqlarının rolu getdikcə artır, işçilərin əmək, sosial və iqtisadi hüquqlarının və qanuni mənafelərinin təmin olunması istiqamətində fəal iş görülür. Bundan sonrakı fəaliyyətimizi də bu istiqamətdə quraraq işçilərin əmək hüquqlarının qorunması, əməyin mühafizəsi, istehsalatda xəsarət alanların müalicəsi və müavinətlərlə təmin olunması, onların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə calışacağıq.

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | | | |

## vergi təqvimi

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:** 15 fevral - «(5)»
20 fevral - «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonrakı hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Audit

# ƏDV tutulan əməliyyatların aparıldığı vaxtın təyin edilməsi

*«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-IVQD nömrəli Qanununa əsasən Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və əlavələr üzrə ƏDV ödəyiciləri Vergi Məcəlləsinin 166-cı maddəsinin tələblərinə əməl olunmasına xüsusi diqqət yetirməlidir.*

Hazırda Vergi Məcəlləsinin 166.1-ci maddəsinin tələblərinə görə vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi, ödəmə 30 gündən sonra həyata keçirildikdə isə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır.

Bu maddənin izahına aydınlıq gətirilməsi üçün həmin maddənin məzmununu şərti olaraq iki hissəyə bölək:

**1. Ödəmə 30 gün müddətində olarsa:** Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gün müddətində həyata keçirildikdə ödəmənin həyata keçirildiyi vaxt sayılır. Deməli, malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gün müddətində həyata keçirildikdə həmin 30 gün ərzində və ya sonrakı vaxtlarda ƏDV-nin elektron vergi hesab-fakturasının verilib-verilməməsindən asılı olmayaraq, ödəmənin həyata keçirildiyi vaxt vergi tutulan əməliyyatın vaxtı sayılır.

***Məsələn,***
*Mal satılıb (qaimə tarixi) - 10.01.2013*
*Alıcı pulu ödəyi (24 gün sonra) - 03.02.2013*
*Alıcıya VHF verilib (15 gün sonra) - 25.01.2013*
***Vergi tutulan əməliyyatın vaxtı - 03.02.2013, yəni fevral ayı***

**2. Ödəmə 30 gündən sonra olarsa:** Vergi tutulan əməliyyatın vaxtı həmin əməliyyat üçün ödəmə 30 gündən sonra həyata keçirildikdə ƏDV-nin elektron vergi hesab-fakturasının verildiyi vaxt sayılır. Vergi Məcəlləsinin 176.3-cü maddəsinə görə vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

Burada iki hal yaranır:

- Malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ödəmə 30 gündən sonra həyata keçirildikdə malların təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi gündən 5 gün müddətində ƏDV-nin elektron vergi hesab-fakturası verilibsə, elektron vergi hesab-fakturasının verildiyi vaxt vergi tutulan əməliyyatın vaxtı sayılır.

- Əgər ƏDV-nin elektron vergi hesab-fakturası malların təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi gündən 5 gün müddətində deyil, sonrakı günlərdə verilmişdirsə, malların göndərildiyi və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi vaxt vergi tutulan əməliyyatın vaxtı sayılır (maddə 166.1.1).

***Məsələn,***
*Mal satılıb (qaimə tarixi) - 28.02.2013*
*Alıcı pulu ödəyib (satışdan 35 gün sonra) - 05.04.2013*
*Alıcıya VHF verilib (satışdan 2 gün sonra) - 02.03.2013*
***Vergi tutulan əməliyyatın vaxtı - 02.03.2013, yəni mart ayı***

*Mal satılıb (qaimə tarixi) - 25.02.2013*
*Alıcı pulu ödəyib (satışdan 33 gün sonra) - 30.03.2013*
*Alıcıya VHF verilib (satışdan 3 gün sonra) - 28.02.2013*
***Vergi tutulan əməliyyatın vaxtı - 25.02.2013, yəni fevral ayı***

*Mal satılıb (qaimə tarixi) - 25.02.2013*
*Alıcı pulu ödəyib (satışdan 35 gün sonra) - 30.03.2013*
*Alıcıya VHF verilib (satışdan 13 gün sonra) - 10.03.2013*
***Vergi tutulan əməliyyatın vaxtı - 25.02.2013, yəni fevral ayı***

Əlavə və dəyişikliklərdən sonra vergi ödəyiciləri praktikada maraqlı məqamlarla rastlaşa bilərlər. Hər hansı təqvim ayının 20-dən axırına kimi olan müddətdə mallar (işlər, xidmətlər) təqdim edən vergi ödəyiciləri güman edə bilərlər ki, ödəmələr 30 gün müddətində baş verəcək. Məsələn, mal satışı 23 fevral tarixində baş verib və satıcı-vergi ödəyicisi güman edir ki, alıcı tərəfindən ödəniş 22 mart tarixində (27 gün sonra) gözlənilir. Satıcı-vergi dəyicisi 22 mart tarixində ödənişin olacağına inanaraq 23 fevral tarixində baş verən əməliyyatı fevral ayının cari ƏDV bəyannaməsində vergiyə cəlb olunan dövriyyədə nəzərdə tutmur. Lakin müəyyən səbəblərdən 22 martda və ya 30 gün başa çatan müddətdə (25 martadək) ödəniş olmur. Belə halda, vergi ödəyicisi fevral ayı üçün dəqiqləşdirilmiş bəyannamə təqdim etməli və fevral ayı üzrə vergiyə cəlb olunan dövriyyəyə 23 fevraldakı satışın dəyərini əlavə etməlidir.

Əksinə də ola bilər. Satıcı-vergi ödəyicisi güman edir ki, alıcı tərəfindən ödəmələr 30 gün müddətində (25 martadək) həyata keçirilməyəcək. Ona görə də vergi ödəyicisi 30 gün müddətində ödənişin olacağına inanmayaraq fevral ayının ƏDV bəyannaməsində vergiyə cəlb olunan dövriyyədə 23 fevraldakı satışın dəyərini nəzərə alır. Nəzərə almaya da bilərdi, çünki mart ayının 20-dən (bəyannamənin təqdim olunma müddətinin başa çatdığı gündən) 25-dək olan müddətdə (ödəniş üçün 30 gün başa çatan müddətdə) ödəniş olarsa, vergi ödəyicisi 23 fevraldakı satışın dəyərini mart ayının ƏDV bəyannaməsində nəzərə almaq imkanı əldə edir. Məsələn, müştəri 22 mart (27 gün sonra) tarixində ödəniş edir. Belə halda, vergi ödəyicisi 20 mart tarixinədək fevral ayı üçün cari ƏDV bəyannaməsini vermişdirsə, fevral ayı üçün dəqiqləşdirilmiş bəyannamə təqdim etməlidir və fevral ayı üzrə vergiyə cəlb olunan dövriyyəyə əlavə etdiyi 23 fevraldakı satışın dəyərini dövriyyədən çıxarmalıdır.